*Ictimai səhiyyə fakültəsi*

***Qidalanma və tibbi ekologiya kafedrası***

## *VI kurs*

**Fənn: Qidalanma gigiyenası sahəsində DSN**

## *I mövzu*

# *Qidalanma sahəsində Dövlət sanitariya nəzarəti. Fəaliyyətin təşkilatı və hüquqi əsasları.*

*Kaf. müdiri, Respublikanın Əməkdar müəllimi, dosent İbrahim Əhmədov*

**Mühazirənin məqsədi :**

***Qidalanma sahəsində*** **Dövlət sanitariya nəzarətinin strukturu, fəaliyyətin məqsədi, hüquq və vəzifələrini şərh etmək.**

# *Dövlət sanitariya nəzarəti*

- *- ətraf mühitin qorunması*

- **- əhalinin əmək, məişət və istirahətinin yaxşılaşdırılması**

- ***- xəstəliklərin və zəhərlənmələrin azaldılması və qarşısının alınmasına yönəldilmiş sanitar-gigiyenik və epidemiyalar əleyhinə tədbirlərin həyata keçirilməsinə nəzarəti həyata keçirir***

- ***Qidalanma sahəsində sanitariya nəzarəti Dövlət sanitariya nəzarətinin mühüm bir bölməsidir.***

- 

- ***Bu nəzarətin əsas məqsədi əhalini keyfiyyətli və təhlükəsiz ərzaq məhsulları və qidalarla təmin etməyə xidmət göstərən sanitariya tədbirlərini həyata keçirməkdir.***

**Qidalanma sahəsində dövlət sanitariya nəzarətini həyata keçirən struktur AQTA-dır**

**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi**

- **Respublikamızda kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair "Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etmək,**
- **qida təhlükəsizliyinə nəzarət sistemini təkmilləşdirmək,**
- **- bu sahədə şəffaflığı daha da artırmaq məqsədi ilə yaradılmış orqandır.**

**QTA - Prezident İlham Əliyevin “Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 10 fevral 2017-ci il tarixli fərmanı ilə yaradılmışdır.**

**Agentliyin Aparatı işçilərinin say həddi 135 ştat vahidi müəyyən edilmişdi (ilkin)**

# Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin balansına verilən sahələr

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi

Kənd Təsərrüfatı Nazirliyi Yanında Fitosanitar Nəzarəti Xidməti

Kənd Təsərrüfatı Nazirliyi Yanında Baytarlıq Nəzarəti Xidməti

**Səhiyyə Nazirliyinin Gigiyena və Epidemiologiya Mərkəzinin qidalanma gigiyenası bölməsi**

**İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Qorunması üzrə Dövlət Xidməti**

# AQTA-nın strukturu

- **Qida Təhlükəsizliyi şöbəsi**
- **Qeydiyyat  və sahibkarlarla iş şöbəsi**
- **Hüquq, kadr və icraya nəzarət şöbəsi**
- **Daxili nəzarət və regional bölmələrlə iş şöbəsi**
- **Heyvan sağlamlığı və baytarlıq nəzarəti şöbəsi**
- **Bitki sağlamlığı və fitosanitar nəzarəti şöbəsi**
- **İnformasiya təminatı və innovativ həllər şöbəsi**
- **Maliyyə və təminat şöbəsi**
- **Beynəlxalq Əlaqələr və protokol şöbəsi**
- **İdxal və ixraca nəzarət şöbəsi**
- **Strateji təhlil və planlaşdırma sektoru**

# Fəaliyyət istiqamətləri:

- **- müvafiq sahədə vahid dövlət siyasətinin hazırlanmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir;**
- **- müvafiq sahədə dövlət tənzimləməsini, dövlət nəzarətini və əlaqələndirməni həyata keçirir;**
- **- müvafiq sahədə normayaratma fəaliyyətini, o cümlədən qida məhsullarının təhlükəsizliyinə dair normativ tənzimləməni (sanitariya norma və qaydalarının, habelə gigiyena normativlərinin hazırlanmasını və təsdiqini) həyata keçirir;**
- **- ölkədə istehsal edilən və ölkəyə idxal olunan qida məhsullarını, habelə onları qablaşdırma materiallarını qida təhlükəsizliyi baxımından dövlət qeydiyyatına alır və reyestrini aparır;**
- **- - qida məhsulları istehlakçılarının hüquqlarının müdafiəsi haqqında qanunvericiliyə riayət edilməsinə dövlət nəzarətini həyata keçirir;**
- **- xarici ölkələrə ixrac edilən qida məhsullarına qida təhlükəsizliyi sertifikatı verir;**
- **- müvafiq sahənin inkişafını təmin edir.**

## • Beynəlxalq əməkdaşlıq:

- **Ümumdünya Səhiyyə Təşkilatı**
- **Birləşmiş Millətlər Təşkilatının Qida və Kənd Təsərrüfatı Təşkilatı**
- **-**
- **Ümumdünya Heyvan Sağlamlığı Təşkilatı**
- **Beynəlxalq Bitki Mühafizəsi Konvensiyası**
- **Standartlaşdırma üzrə Beynəlxalq Təşkilat**
- **Beynəlxalq Laboratoriya Akkreditasiya Təşkilatı**
- **Codex Alimentarius Komissiyası**
- **Avropa Birliyi**

**Ölkədə həyata keçirilən islahatların tərkib hissəsi kimi Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi istiqamətində mühüm addım atılır.**

**Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə" təsdiq edilmişdir.**

**Fərmana əsasən, Qida Təhlükəsizliyi Agentliyinin 2018-ci il yanvar ayının 1-dən etibarən fəaliyyətə başlaması nəzərdə tutulmuşdu.**

**Agentliyin fəaliyyətə başlaması bu sahədə idarəetmənin səmərəliliyini və optimallığını təmin edəcək, pərakəndəliyi və təkrarlanmaları aradan qaldıracaqdır.**

**Qida təhlükəsizliyi ilə bağlı vahid idarəetmənin tətbiqi resurslara qənaət edilməsinə, istehlakçı maraqlarının qorunmasına, ixrac və idxal proseslərində sənədləşmənin asanlaşmasına, xarici ölkələrə ixrac edilən qida məhsullarının qida təhlükəsizliyi sertifikatı ilə təmin edilməsinə, idxal olunan qida məhsullarının təhlükəsizliyinin təmin edilməsinə, sahibkarlıq subyektlərində yoxlamaların azaldılmasına və şəffaflaşdırılmasına, genetik modifikasiya olunmuş qida məhsullarının ölkəyə idxalına nəzarətin gücləndirilməsinə səbəb olacaqdır.**

- **Bununla həm də Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsinin qida təhlükəsizliyinə nəzarət sahəsində müxtəlif orqanların fəaliyyətindəki paralelliyin aradan qaldırılması və effektiv tənzimləmə sisteminin qurulması ilə bağlı tədbirin icrası təmin olunacaqdır.**
- **Ümumiyyətlə bütün maraqlı tərəflərin iştirakçılığına və risk əsaslı yanaşmaya əsaslanan qida təhlükəsizliyi sisteminin yaradılması ilk növbədə Azərbaycan vətəndaşlarının keyfiyyətli qida məhsulları ilə təminatına xidmət edəcəkdir.**
- **Prezidentin Fərmanı ilə həm də "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin strukturu" təsdiqlənib. Agentliyin Aparatının işçilərinin say həddi 75 ştat vahidi müəyyən edilib.**
- **Eyni zamanda Prezidentin Fərmanı ilə AQTA-nin tabeliyində publik hüquqi şəxs statuslu Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu yaradılmışdır.**
- **Bu institut qida məhsullarının təhlükəsizliyi sahəsində elmi-praktiki araşdırmaların aparılması, elmi prinsiplərə əsaslanan risk qiymətləndirilmənin həyata keçirilməsi, qida təhlükəsizliyi sahəsində texniki, normativ hüquqi aktların layihələrinin hazırlanması və digər müvafiq fəaliyyətləri həyata keçirəcəkdir.**

**Xidmətə AQTA-ın sədri rəhbərlik edir.**

- ***AQTA-nın sədri*** **AR Prezidentinin sərəncamı ilə vəzifəyə təyin edilir və vəzifədən azad olunur.**
- 
- **Q.İ.Təhməzlinin Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**
- 
- **Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alıram:**
- 
- **Qoşqar İlahi oğlu Təhməzli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri təyin edilsin.**
- 
- **İlham Əliyev**
- **Azərbaycan Respublikasının Prezidenti**
- **Bakı şəhəri, 25 dekabr 2017-ci il.**
- 

- **Regionların QTA bölmələrinin rəhbəri isə Yerli İcra Hakimiyyəti orqanları ilə razılaşdırmaqla *AQTA-nın sədri* tərəfindən vəzifəyə təyin edir və vəzifədən azad edilir.**
- 
- **İdarə sanitariya nəzarəti üzrə sanitariya həkimləri və onların müavinləri Respublikanın müvafiq orqanları (SN, AQTA) ilə razılaşdırıldıqdan sonra həmin qurumun rəhbərliyi tərəfindən vəzifəyə təyin edilirlər.**

**Azərbaycan Respublikasında**

**Dövlət sanitariya nəzarətinin təşkili 10 noyabr 1992 –ci ildə qüvvəyə minmiş «Sanitariya epidemioloji salamatlıq haqqında» Azərbaycan respublikası qanunu rəhbər tutulmaqla həyata keçirilir.**

- **Dövlət sanitariya nəzarəti (maddə 28)**
- **İdarə sanitariya nəzarəti (maddə 29)**
- **İstehsalat sanitariya nəzarəti (maddə 30)**
- **İctimai sanitariya nəzarəti (maddə 31)**

# Dövlət Sanitariya Nəzarətini həyata keçirilməsində iştirak edən orqan və idarələr

- AQTA
- Regional QTA-ri

- SN-nin Sanitariyi Epidemioloji nəzarət sektoru
- RGEM
- Şəhərlərin Gigiyena Epidemiologiya Mərkəzləri
- Rayonların Gigiyena Epidemiologiya Mərkəzləri
- Səhiyyə Nazirliyinin Taun əleyhinə stansiyası
- Gig. Epidemiologiya profilli elmi-tədqiqat idarələri (MPİ)
- Gigiyenik profilli kafedralar

- İdarə GEM-ri
- Su nəqliyyatında Gigiyena Epidemiologiya Mərkəzi
- Hava nəqliyyatında Gigiyena Epidemiologiya Mərkəzi
- Dəmir yolu nəqliyyatında Gigiyena Epidemiologiya Mərkəzi
- Neft şirkətinin Tibb xidməti departamenti (əvvəllər GEM)

**Azərbaycan Respublikası Qida təhlükəsizliyi Agentlyinin maddi texniki təminatı respublika büdcəsi və müəyyənləşdirilmiş qaydada büdcədənkənar vəsait hesabına həyata keçirilir.**

**Fövqəladə vəziyyətlərdə yoluxucu və digər kütləvi xəstəlikləri, zəhərlənmələri ləğv etmək və yayılmasının qarşısını almaq üçün SGvəEƏ tədbirlərə çəkilən xərcləri maliyyələşdirmək məqsədi ilə Respublika QTA yanında xüsusi fond yaradılır.**

**<u>Nəzarətin həyata keçirilməsi zamanı istinad edilən qanunvericilik və normativ sənədlər:</u>**

- **-Azərbaycan Respublikası Konstitusiyasına (39, 42-ci bəndləri)**
- ***-Nazirlər Kabinetinin Qərar və Qətnamələrinə***
- **-«Əhalinin sağlamlığının Qorunması haqda» Azərbaycan Respublikasının Qanununa (1997)**
- **-«Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentlyinin və Qida Təhlükəsizliyi institutunun yaradılnası haqda sərəncama»**
- **-«Sanitariya Epidemioloji Salamatlıq Haqqında» Azərbaycan Respublikasının Qanununa (10 noyabr 1992-ci il)**
- ***-«Respublikanın Qanunvericilik Əsasları»na***
- **-«Yeyinti məhsulları» haqda Azərbaycan Respublikasının Qanununa (29.01.2000)**
- **-«Yeyinti məhsulları» haqda Azərbaycan Respublikasının Qanununa dəyişikliklərə (23.11.2001)**
- **Resprublika Prezidentinin 2 mart 2001-ci il tarixli 640 nömrəli sərəncamı ilə təsdiq edilmiş «ƏRZAQ TƏHLÜKƏSİZLİYİ PROQRAMI»na və s.**

- **Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət proqramının hazırlanması haqqında Respublika Prezidentinin Sərəncamından (1 may 2008) irəli gələn müddəalara.**

- **-Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (2000).**
- **«Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2008-ci il 16 may tari 607-III QD nömrəli Qanununa. Maddə 65-68, 71, 75-80, 105-113.**

- **- Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin *Əmrləri və Sərəncamların* Ə**
- **mrləri və Sərəncamlarına.**
- ***-Yerli Hakimiyyət orqanlarının Əmrləri və Sərəncamlarına.***
- **-Məhsulların gigiyenik sertifikatlaşdırılmasının müvəqqəti Qaydalarına.**
- **- Səhiyyə Nazirliyinin «Müalicə –profilaktika müəssisələrində sanitariya-gigiyenik və əksepidemik rejim və müalicə –profilaktika müəssisələri üzərində dövlət sanitariya nəzarətinin həyata keçirilməsi qaydaları haqqında təlimatların təsdiq edilməsi barəd 24 06. 1994-cü il tarixli 145 №-li əmrinə.*-hiyy Nazirliyinin 13 saylı əmrinə (Tibbi profilaktik müayinələrin təkmilləşdirilməsi haqda. 1998)***
- **AQTA-nın metodik göstərişləri, metodik məktublarına əsaslanmaqla həyata keçirilir**
- ***-Sanitariya Nəzarətinin həyata keçirilməsi zamanı həmçinin qüvvədə olan Sanitariya***

## *Qidalanma sahəsində DSN fəaliyyətinə* daxildir *:*

- ✓ **- yeyinti məhsulları istehsalının bütün sahələrinə nəzarət**
- ✓ ***- əhalinin sağlamlığına mənfi təsir göstərməsin deyə gübrələrin, pestisidlərin və digər kimyəvi vasitələrin, GMO-in, fiziki amillərin tətbiqi üzərində sanitariya nəzarəti***
- ✓ **- yeyinti məhsullarının texnoloji emalı, saxlanması, daşınması və satışı üzərində nəzarət**
- ✓ **- *qidaların hazırlanmasında keyfiyyətsiz, tərkibində patogen və şərti patogen mikroblar, bioloji və kimyəvi mənşəli toksiki maddələr olan məhsullardan istifadə edilməsi nəticəsində baş verə biləcək qida zəhərlənmələri və kütləvi xəstəliklərin qarşısını almaq məqsədilə ictimai iaşə müəssisələrində sanitariya -gigiyenik tədbirlərin gözlənilməsinə nəzarət***
- ✓ **- ayrı-ayrı yaş və peşə qruplarına mənsub əhalinin qida rasionlarının əsas qida maddələrinə və bioloji aktiv maddələrə, həmçinin yeyinti məhsulları toplusuna görə səmərəliliyi üzərində nəzarət və s.**

- **Əsasnamə**
- **Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Əsasnaməsi**
- **AQTA haqqında Əsasnamə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.**
- **”Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

- # 1. Ümumi müddəalar

- **1.1. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik) qida məhsullarının təhlükəsizliyinə, baytarlıq və fitosanitar nəzarətinə dair normativ tənzimləməni, qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən subyektlərin qeydiyyatını, qida təhlükəsizliyi, fitosanitar və baytarlıq sertifikatlarının verilməsini, qida məhsullarının ilkin istehsalı, tədarükü, istehsalı, emalı, qablaşdırılması, saxlanması, daşınması, dövriyyəsi (o cümlədən idxal-ixrac əməliyyatları) daxil olmaqla qida zəncirinin bütün mərhələlərində qida məhsullarının təhlükəsizliyinə, həmçinin qida məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin istehlakçılarının hüquqlarının müdafiəsinə dövlət nəzarətini, habelə qeyd olunan sahələrdə (bundan sonra – müvafiq sahədə) dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.**

- <u>**Əsasnamə davamı**</u>
- **1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.**
- **1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.**
- **1.4. Agentliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.**
- <u>**1.5. Agentliyin saxlanması xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunla nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.**</u>
- **1.6. Agentlik Bakı şəhərində yerləşir.**

- <u>**Əsasnamə davamı**</u>

- # <u>2. Agentliyin fəaliyyət istiqamətləri</u>

- <u>**2.0. Agentlik aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:**</u>
- **2.0.1. müvafiq sahədə vahid dövlət siyasətinin hazırlanmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir;**
- **2.0.2. müvafiq sahədə dövlət tənzimləməsini, dövlət nəzarətini və əlaqələndirməni həyata keçirir;**
- **2.0.3. müvafiq sahədə norma yaratma fəaliyyətini, o cümlədən qida məhsullarının təhlükəsizliyinə dair normativ tənzimləməni (sanitariya norma və qaydalarının, habelə gigiyena normativlərinin hazırlanmasını və təsdiqini) həyata keçirir;**
- **2.0.4. ölkədə qida məhsulları sahəsində fəaliyyət göstərən subyektləri qida təhlükəsizliyi baxımından qeydiyyata alır və dövlət reyestrini aparır;**
- **2.0.5. qida məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin istehlakçılarının hüquqlarının müdafiəsi haqqında qanunvericiliyə riayət edilməsinə dövlət nəzarətini həyata keçirir;**
- **2.0.6. qida təhlükəsizliyi, baytarlıq və fitosanitar sertifikatları verir;**
- **2.0.7. müvafiq sahənin inkişafını təmin edir.**

- **Əsasnamə davamı**
- # 3. Agentliyin vəzifələri
- **3.0. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Agentliyin vəzifələri aşağıdakılardır:**
- **3.0.1. müvafiq sahədə mövcud vəziyyəti təhlil etmək, dövlət tənzimləməsi və nəzarəti sisteminin təkmilləşdirilməsi barədə təkliflər hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;**
- **3.0.2. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn vəzifələri yerinə yetirmək;**
- **3.0.3. aidiyyəti dövlət orqanları ilə birlikdə müvafiq sahənin inkişafı üzrə prioritetləri müəyyən etmək, dövlət proqramlarının və inkişaf konsepsiyalarının hazırlanmasını və həyata keçirilməsini təmin etmək;**
- **3.0.4. digər icra hakimiyyəti orqanlarının müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək;**
- **3.0.5. fəaliyyət istiqamətləri ilə bağlı Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini təmin etmək;**
- **3.0.5-1. müvafiq sahə üzrə beynəlxalq təşkilatların tövsiyələrinin öz fəaliyyətində nəzərə almaq;**
- **3.0.6. müvafiq sahədə risklərin təhlilini, o cümlədən risk qiymətləndirilməsini, risklərin idarə edilməsini və risklər haqqında məlumatlandırmanı həyata keçirmək;**

- **<u>Əsasnamə davamı</u>**
- **3.0.7. ölkədə qida məhsulları sahəsində fəaliyyət göstərən subyektləri qida təhlükəsizliyi baxımından dövlət qeydiyyatına almaq və dövlət reyestrini aparmaq, həmçinin qida təhlükəsizliyi, baytarlıq və fitosanitar sertifikatlarını vermək;**
- **3.0.8. gömrük orqanları ilə birlikdə dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilmiş yüklər (mallar, məhsullar) üzərində baytarlıq, fitosanitar və qida təhlükəsizliyi nəzarəti ilə bağlı tədbirləri həyata keçirmək;**
- **3.0.9. qanunla müəyyən edilmiş hallarda və qaydada müvafiq sahədə yoxlamalar aparmaq və digər dövlət nəzarəti tədbirlərini həyata keçirmək, bu sahədə aşkar olunmuş qanun pozuntularının aradan qaldırılması və (və ya) məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə qərarlar qəbul etmək (göstərişlər vermək);**
- **3.0.10. bu Əsasnamənin 3.0.9-cu yarımbəndində nəzərdə tutulan qanun pozuntularının aradan qaldırılması ilə bağlı verilmiş qərarlar (göstərişlər) yerinə yetirilmədikdə, onların məcburi icrası məqsədi ilə məhkəməyə müraciət etmək;**

- **Əsasnamə davamı**
- **3.0.11. istifadəyə yararsız yeyinti məhsullarının, bitki və heyvan mənşəli məhsulların, qablaşdırma materiallarının, köməkçi emal maddələrinin zərərsizləşdirilməsi və utilizasiyası (təkrar emalı, təyinatının dəyişdirilməsi və ya məhv edilməsi) barədə qanunla müəyyən edilmiş hallarda və qaydada qərar qəbul etmək;**
- **3.0.11-1. xüsusi təhlükəli heyvan xəstəlikləri baş verdikdə qoruyucu karantin, xüsusi baytarlıq tədbirlərinin və digər tədbirlərin həyata keçirilməsi qaydalarını müəyyənləşdirmək, baş vermiş xəstəliyin yayılma təhlükəsi olan zonalarda qanunla müəyyən edilmiş hallarda və qaydada məhdudiyyət və xəbərdarlıq təyinatlı tədbirlər görmək, heyvanların kəsilməsi və ya məhv edilməsi, heyvan mənşəli xammalın, baytarlıq preparatlarının, yem və yem əlavələrinin zərərsizləşdirilməsi və ya utilizasiya edilməsi haqqında icrası məcburi olan göstərişlər vermək;**
- **3.0.11-2. fitosanitar nəzarətində olan karantin obyektlərində və bitki karantini nəzarətində olan materiallarda zərərli orqanizmləri vaxtında aşkarlayaraq materialları təcrid etmək, məhsulun tədqiqi nəticəsində təhlükəliliyi sübut edilmiş bitki, bitkiçilik məhsulları, pestisidlər, bioloji preparatlar, aqrokimyəvi maddələr və digər bitki mühafizə vasitələrinin götürülməsi, saxlanması, zərərsizləşdirilməsi, təkrar emal və ya məhv edilməsi üçün müvafiq tədbirlər görmək;**

- **Əsasnamə davamı**
- **3.0.12. səlahiyyətlərinə aid edilmiş inzibati xətalar haqqında işlərə baxmaq və inzibati tənbeh tədbirləri tətbiq etmək;**
- **3.0.13. qida zəncirinin müvafiq mərhələlərində işləyən şəxslərin işə qəbul olunmazdan əvvəl və işlədikləri müddət ərzində Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə birlikdə müəyyən edilmiş qaydada və müddətdə məcburi tibbi müayinədən keçmələrinə nəzarət etmək;**
- **3.0.14. qida zəncirinin müvafiq mərhələlərində işləyən və çalışdıqları istehsalatın və ya gördükləri işin xüsusiyyətləri ilə əlaqədar olaraq yoluxucu və parazitar xəstəlikləri yaymaq təhlükəsi yaradan şəxslərin, habelə sanitariya norma və qaydalarını, gigiyena normativlərini müntəzəm yerinə yetirməyən şəxslərin işdən kənarlaşdırılmasını tələb etmək;**
- **3.0.14-1. qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərə məxsus binalarda, qurğularda, sahələrdə, ərazilərdə, qida məhsulları daşınan nəqliyyat vasitələrində dezinfeksiya, dezinseksiya, deratizasiya, fumiqasiya işlərinə, həmçinin baytarlıq, fitosanitar və qida təhlükəsizliyi ilə bağlı digər tədbirlərin həyata keçirilməsinə nəzarət etmək;**
- **3.0.15. aidiyyəti dövlət orqanları ilə birlikdə rasional fizioloji normaların hazırlanmasında iştirak etmək;**

- **<u>Əsasnamə davamı</u>**
- **3.0.16. qida təhlükəsizliyi ilə bağlı dövlət nəzarətinin həyata keçirilməsi məqsədi ilə aparılan, bu Əsasnamənin 3.0.9-cu yarımbəndində nəzərdə tutulan yoxlama tədbirləri zamanı qanunla müəyyən olunmuş hallarda və qaydada məhsulun tədqiqi (sınağı), qida məhsullarının təhlükəsizlik göstəricilərinin qiymətləndirilməsi üçün məhsul nümunələrinin götürülməsi barədə qərar qəbul etmək, tabeliyindəki akkreditasiya olunmuş laboratoriyalarda həmin nümunələrin vahid metodika əsasında qiymətləndirilməsini təmin etmək, aşkarlanmış pozuntuların aradan qaldırılması üçün göstərişlər vermək və qanunla nəzərdə tutulmuş digər tədbirlər görmək;**
- **3.0.17. qida məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin istehlakçılarının hüquqlarının müdafiəsi haqqında qanunvericiliyə, o cümlədən müvafiq sahədə ticarət, ictimai iaşə, məişət və digər növ xidmət qaydalarına riayət olunmasına dövlət nəzarətini həyata keçirmək, bu sahədə qanun pozuntularının qarşısının alınması və pozuntuya yol vermiş şəxslərin qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilməsi məqsədi ilə tədbirlər görmək;**
- **3.0.18. qida məhsullarının təhlükəsizliyinə dair tələblər barədə istehlakçıların tam, dəqiq və ən yeni informasiya ilə təmin edilməsi məqsədilə tədbirlər görmək;**
- **3.0.19. qida məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin istehlakçılarının hüquqlarının və qanuni mənafelərinin pozulmasına gətirib çıxaran və ya gətirib çıxara bilən hərəkətlərin qarşısının alınması üçün tədbirlər hazırlamaq və həyata keçirmək;**

- **3.0.20. qida məhsullarının saxlanması və ya satışı zamanı mal qonşuluğunun və satılmış malların dəyişdirilməsi və ya geri çağırılması qaydalarının pozulmasına qarşı tədbirlər görmək;**
- **3.0.21. təhlükəli və kütləvi zəhərlənməyə (xəstəliklərə) səbəb olmuş, habelə bu cür hallara səbəb ola biləcəyinə əsaslı sübutlar olan, ölkədə istehsal edilən və ya ölkəyə idxal edilmiş qida məhsullarının dövriyyədən çıxarılması və qida təhlükəsizliyi baxımından yaranmış fövqəladə vəziyyətin aradan qaldırılması ilə bağlı aidiyyəti dövlət orqanları ilə birlikdə təxirəsalınmaz tədbirlər görmək;**
- **3.0.22. qida təhlükəsizliyi baxımından əhali arasında baş vermiş qida zəhərlənmələri hallarını təhlil etmək, habelə onların yayılmasının qarşısının alınmasına və aradan qaldırılmasına yönəldilmiş tədbirlər görmək;**
- **3.0.23. ölkəyə idxal olunan qida məhsullarının ilkin istehsalı, istehsalı və emalı sahələrində fəaliyyət göstərən subyektlərin infrastruktur və məhsulların təhlükəsizlik meyarları üzrə ekspertizalarının keçirilməsini təşkil etmək, belə ekspertizaların nəticələrinə uyğun olaraq həmin subyektlərin qeydiyyatını və dövlət reyestrini aparmaq, subyektlər qeydiyyata alınmadıqda idxal olunan qida məhsullarına qida təhlükəsizliyi sertifikatları vermək, qida məhsullarının ixracı ilə bağlı idxalçı ölkələrin, o cümlədən Avropa İttifaqının bu sahədə tələblərinin icrasını həyata keçirmək;**

- **3.0.24. fəaliyyət istiqamətləri üzrə aparılan araşdırmalar, monitorinqlər, yoxlamalar, ekspertizalar və onların nəticələri ilə bağlı görülən işlərə dair məlumatları təhlil etmək və vahid informasiya bankı yaratmaq;**
- **3.0.25. aidiyyəti dövlət orqanları ilə birlikdə qida məhsullarının sınağı üçün laboratoriya sisteminin inkişafı ilə bağlı təkliflər vermək;**
- **3.0.26. qida məhsullarının keyfiyyətinə dair standartların və texniki şərtlərin layihələrinə qanunla müəyyən olunmuş qaydada rəy vermək;**
- **3.0.27. aidiyyəti dövlət orqanları ilə birlikdə müvafiq sahədə sahibkarlığın inkişafı ilə bağlı tədbirlərin və sahibkarlığa dövlət dəstəyi sahəsində dövlət tənzimləməsinin həyata keçirilməsi üçün tədbirlər görmək;**
- **3.0.28. qida məhsulları istehlakçılarının, habelə qida zəncirinin bütün mərhələlərində fəaliyyət göstərən sahibkarların qida təhlükəsizliyi ilə bağlı maarifləndirilməsi, iqtisadi və hüquqi informasiya ilə təmin edilməsi üçün aidiyyəti dövlət orqanları ilə birlikdə tədbirlər görmək, sahibkarlıq fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə beynəlxalq təcrübənin tətbiqini təmin etmək, sahibkarların rəqabət qabiliyyətinin artırılması istiqamətində təkliflər hazırlamaq;**
- **3.0.29. genetik modifikasiya olunmuş, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış orqanizmlərə və tərkibində bu orqanizmlərin özü və ya materialı olan qida məhsullarına nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq, habelə aidiyyəti dövlət orqanları ilə birlikdə belə qida məhsullarının qanunsuz dövriyyəsinə qarşı qanunda nəzərdə tutulmuş tədbirlər görmək;**

- **3.0.30. genetik modifikasiya olunmuş, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış orqanizmlərin və tərkibində bu orqanizmlərin özü və ya materialı olan qida məhsullarının aşkarlanması və bu məhsullardan yarana biləcək təhlükənin təyin edilməsi ilə bağlı aidiyyəti dövlət orqanları ilə birlikdə tədbirlər görmək;**
- **3.0.31. ölkəyə idxal olunan qida mənşəli genetik məhsulların ölkənin gömrük sərhədindən keçirilərkən genetik modifikasiyaya məruz qalıb-qalmadığını yoxlamaq;**
- **3.0.32. qida zəncirinin bütün mərhələlərində qida təhlükəsizliyi təminatının gücləndirilməsi məqsədi ilə qida məhsullarının izlənilməsi və geri götürülməsi sisteminin aidiyyəti dövlət orqanları ilə birlikdə hazırlanması və tətbiqi ilə bağlı tədbirlər görmək;**
- 
- **3.0.33. sağlam və rasional qidalanmanı təşviq etmək;**
- **3.0.33-1. qida məhsullarının istehsalı, qablaşdırılması, saxlanması, emalı, utilizasiyası və məhv edilməsi üçün nəzərdə tutulan tikinti obyektlərinin tikintisi və yenidən qurulmasına dair layihələrə rəy vermək;**
- **3.0.33-2. qanunla müəyyən edilmiş qaydada əhalini insan və heyvanlar üçün ümumi olan xəstəliklərdən qorumaq;**
- **3.0.33-3. Azərbaycan Respublikasının ərazisini xarici ölkələrdən keçə biləcək yoluxucu xəstəliklərdən qorumaq üçün tədbirlər görmək;**
- **3.0.33-4. heyvan, heyvandarlıq məhsulları və xammal sahibləri tərəfindən Azərbaycan Respublikasının baytarlıq qanunvericiliyinə əməl edilməsinə nəzarət etmək;**

- **3.0.33-5. baytarlıq preparatlarının, vitaminlərin, yem əlavələrinin, habelə mal-qaranın boy artımını sürətləndirən və məhsuldarlığını yüksəldən bioloji stimulyatorların və hormonların təhlükəsizliyinə, istehsalına, saxlanmasına, heyvandarlıqda və baytarlıqda tətbiqinə, dövriyyəsinə qanunla müəyyən edilmiş qaydada nəzarəti həyata keçirmək;**
- **3.0.33-6. epizootiya əleyhinə tədbirlər planı hazırlamaq və təsdiq etmək;**
- **3.0.33-7. beynəlxalq ticarətdə Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (OİE) və digər beynəlxalq təşkilatların tələblərinə uyğun öhdəliklərə və qaydalara əməl edilməsi üçün tədbirlər görmək;**
- **3.0.33-8. mülkiyyət formasından asılı olmayaraq, hüquqi və fiziki şəxslərə baytarlıq xidmətlərin göstərilməsinə nəzarət etmək;**
- **3.0.33-9. dövlət büdcəsi və qanunla qadağan edilməyən digər mənbələr hesabına alınmış baytarlıq və fitosanitariya preparatlarının saxlanmasına, daşınmasına, dövriyyəsinə, istifadəsinə və keyfiyyətinə nəzarət etmək;**
- **3.0.33-10. baytarlıq sahəsində uçot və hesabat aparılmasını təmin etmək, həmçinin heyvanların karantin xəstəliklərinin statistik uçotunu aparmaq;**
- **3.0.33-11. bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin sınağını və qeydiyyatını təşkil etmək və həyata keçirmək;**
- **3.0.33-12. ölkədə fitosanitar vəziyyəti araşdırmaq və bitki mühafizəsi tədbirlərini həyata keçirmək;**

- **3.0.33-13. karantin obyekti olan bitki zərərvericilərinin, xəstəlik törədicilərinin və alaq bitkilərinin Azərbaycan Respublikasının ərazisinə daxil olmasına nəzarət etmək;**
- **3.0.33-14. Azərbaycan Respublikasının ərazisində karantin tətbiq edilən zərərli orqanizmlərin mövcudluğu təsdiq edildikdə, onlarla mübarizə aparmaq məqsədilə həmin ərazidə karantin elan olunması barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təklif vermək;**
- **3.0.33-15. pestisidlərin, bioloji preparatların, aqrokimyəvi maddələrin və digər bitki mühafizə vasitələrinin istehsalına, saxlanmasına, satışına, tətbiqinə, idxalına və ixracına, həmçinin bütün növ bitkiçilik məhsullarında, yemlərdə, yem əlavələrində və torpaqda qalıq miqdarına nəzarət etmək;**
- **3.0.33-16. Azərbaycan Respublikasına gətirilmiş və ölkədən aparılması nəzərdə tutulan karantin nəzarətində olan materiallara fitosanitar karantin baxışı keçirmək və laboratoriya ekspertizasını aparmaq;**
- **3.0.33-17. pestisidlərin, bioloji preparatların, aqrokimyəvi maddələrin və digər bitki mühafizə vasitələrinin idxalı, ixracı, istehsalı, saxlanması, satışı və tətbiqi ilə məşğul olan hüquqi və fiziki şəxslərin Azərbaycan Respublikasının Vergilər Nazirliyindən alınmış məlumata əsasən uçotunu aparmaq;**
- **3.0.33-18. pestisidlərin, aqrokimyəvi maddələrin, bioloji və digər preparatların dövlət sınağını, qeydiyyatını aparmaq və istifadəsinə icazə verilmiş preparatların siyahısını hazırlamaq;**

- **3.0.33-19. baytarlıq preparatlarının aprobasiyasını, ekspertizasını, sınaqdan keçirilməsini, dövlət qeydiyyatına alınmasını və dövlət reyestrinin aparılmasını, həmçinin aprobasiyasına dair rəy verilməsini təmin etmək;**
- **3.0.33-20. bioloji fəallığa malik qida əlavələrinin idxalına, ixracına, istehsalına, satışına, dövriyyəsinə nəzarət etmək;**
- **3.0.33-21. yeyinti məhsuluna "müalicəvi", "pəhriz" və onlara bərabər tutulan adların verilməsi və reklam xarakterli digər məlumatların etiketdə yerləşdirilməsi zamanı texniki reqlamentlərdə və qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarda nəzərdə tutulan tələblərin yerinə yetirilməsinə nəzarət etmək;**

- **3.0.34. tabeliyindəki qurum vasitəsilə qida məhsullarına dair beynəlxalq standartların könüllü tətbiqi üzrə məsləhət və təlim, qida məhsullarının təhlükəsizlik və keyfiyyət göstəriciləri üzrə laboratoriya analizi, ekspertiza və tədqiqat (ölçmə) xidmətləri göstərmək, habelə milli istinad laboratoriyası funksiyalarını həyata keçirmək;**
- **3.0.35. fəaliyyət istiqamətləri ilə bağlı insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək, onların pozulmasının qarşısını almaq;**
- **3.0.36. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, fəaliyyət istiqamətləri ilə bağlı elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək, istehsalatda tətbiqi üzrə tövsiyələr hazırlamaq, habelə müvafiq sahədə sahibkarlar tərəfindən qabaqcıl beynəlxalq idarəetmə sistemlərinin tətbiqini təşviq etmək;**

- **3.0.37. fəaliyyət istiqamətləri ilə bağlı ayrılan büdcə vəsaitindən, kreditlərdən, qrantlardan və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;**
- **3.0.38. Agentliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki digər qurumların öz vəzifələrini yerinə yetirmək üçün istifadə etdikləri məqsədli büdcə vəsaitinin və digər vəsaitlərin xərclər smetalarını təsdiq etmək və onlardan təyinatı üzrə istifadəyə nəzarəti təmin etmək;**
- **3.0.39. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;**
- **3.0.40. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;**
- **3.0.41. fəaliyyət istiqamətləri üzrə kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;**
- **3.0.42. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək;**

- **3.0.43. Agentliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki digər qurumların işini əlaqələndirmək və onların fəaliyyətinə nəzarəti həyata keçirmək;**

- **3.0.44. Agentliyin fəaliyyət istiqamətləri və vəzifələri dairəsində elmi tədqiqatlar aparılmasını təşkil etmək;**

- **3.0.45. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan ərizə, şikayət və təkliflərə baxmaq və müəyyən edilmiş qaydada tədbirlər görmək;**

- **3.0.46. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.**

-

- **4. <u>Agentliyin hüquqları</u>**
- **4.0. Agentliyin öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:**
- **4.0.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;**
- **4.0.2. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təşəbbüslə çıxış etmək;**
- **4.0.3. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;**
- **4.0.4. fəaliyyət istiqamətləri üzrə rəy vermək, təhlillər, ümumiləşdirmələr, monitorinqlər və tədqiqatlar aparmaq, analitik materiallar hazırlamaq;**
- **4.0.5. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi şirkətləri, elmi təşkilatları müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;**
- **4.0.6. "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövri mətbu orqan təsis etmək, xüsusi bülletenlər və digər çap məhsulları buraxmaq;**
- **4.0.7. fəaliyyət istiqamətləri ilə bağlı Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin icrasına nəzarət etmək və həmin müqavilələr üzrə öhdəliklərin yerinə yetirilməsi üçün tədbirlər görmək;**
- **4.0.8. fəaliyyət istiqamətləri üzrə aidiyyəti dövlət orqanlarına təkliflər vermək;**

- **4.0.9. beynəlxalq tədbirlərin, o cümlədən forumların, konfransların, sərgilərin və digər tədbirlərin işində iştirak etmək və belə tədbirlərin ölkədə və xaricdə keçirilməsini təşkil etmək;**
- **4.0.10. istifadəsində olan dövlət əmlakına dair hüquqları həyata keçirmək;**
- **4.0.11. fəaliyyət istiqamətləri üzrə xarici dövlətlərin təcrübəsini öyrənmək, beynəlxalq və xarici əməkdaşlığı həyata keçirmək, xarici dövlətlərin aidiyyəti orqanları və digər qurumları ilə, beynəlxalq təşkilatlarla, xarici hüquqi və digər şəxslərlə əməkdaşlığı təşkil etmək və həyata keçirmək, danışıqlar aparmaq və ya danışıqlarda iştirak etmək, beynəlxalq müqavilələrin layihələrini hazırlamaq və ya hazırlanmasında iştirak etmək;**
- **4.0.12. müvafiq sahədə dövlət nəzarətini həyata keçirmək məqsədi ilə tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq hüquqi və fiziki şəxslərin istehsal, satış, xidmət və saxlama sahələrinə daxil olmaq, nəzarət sahəsinə aid məlumat və sənədləri almaq, satılan və ya satılması nəzərdə tutulan qida məhsullarının müayinəsini həyata keçirmək;**
- **4.0.13. müvafiq sahədə elmi-texniki, iqtisadi və normativ hüquqi məlumat bazalarını yaratmaq, məsləhət xidmətləri göstərilməsini təşkil etmək;**
- **4.0.14. müvafiq sahədə islahatların aparılmasına dair təkliflər vermək;**
- **4.0.15. müvafiq sahədə əldə olunmuş müsbət təcrübəni öyrənmək və geniş yaymaq məqsədi ilə lazımi tədbirlər görmək, məlumatlar vermək;**
- **4.0.16. vəzifə və hüquqlarının həyata keçirilməsi ilə bağlı məhkəməyə iddia (ərizə) ilə müraciət etmək və öz adından məhkəmədə iştirak etmək;**
- **4.0.17. AR Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.**

# 5. Agentliyin fəaliyyətinin təşkili

- **5.1. Agentliyin Aparatı, onun strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki digər qurumlar (hüquqi şəxslər, təşkilatlar və sair), habelə Naxçıvan Muxtar Respublikasının aidiyyəti icra hakimiyyəti orqanı Agentliyin vahid sistemini təşkil edir. Agentlik öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.**
- **5.2. Agentliyin strukturunu, Agentliyin Aparatının və strukturuna daxil olan qurumların işçilərinin ümumi say tərkibini Azərbaycan Respublikasının Prezidenti müəyyən edir. Agentliyin strukturuna daxil olmayan tabeliyindəki digər qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.**
- **5.3. Agentliyin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Agentliyin sədri (bundan sonra – sədr) rəhbərlik edir. Sədr Agentliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.**
- **5.4. Sədrin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən üç müavini vardır. Sədrin müavinləri sədrin onlara həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.**

## 5.5. Sədr:

5.5.1. Agentliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

- 5.5.2. müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Agentliyin digər vəzifəli şəxslərinin ştat, kadr, maliyyə, təsərrüfat və digər məsələlər üzrə səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;
- 5.5.3. Agentliyin Aparatının struktur bölmələrinin, strukturuna daxil olan qurumların (əsasnamələri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla) və Elmi-Texniki Şurasının əsasnamələrinin təsdiqi barədə, həmçinin bu Əsasnamənin 5.11-ci bəndində Agentliyin kollegiyasının səlahiyyətlərinə aid edilməmiş məsələlər barədə normativ hüquqi aktları qərarlar formasında qəbul edir;
- 5.5.4. Agentliyin strukturuna daxil olmayan tabeliyindəki digər qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) nizamnamələrini təsdiq edilmək üçün təqdim edir;
- 5.5.5. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Agentliyin Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki digər qurumların (strukturu Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla) strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində onların xərclər smetasını təsdiq edir;
- 5.5.6. Apellyasiya Şurasının sədrini, habelə Apellyasiya Şurası sədrinin təqdimatı (təklifi) əsasında Apellyasiya Şurasının digər üzvlərini, Katibliyin rəhbərini və tərkibini təsdiq edir.

- **5.5.7. Agentliyin Aparatının və onun strukturuna daxil olan regional bölmələrin işçilərini, habelə Agentliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki digər qurumların rəhbərlərini və onların müavinlərini vəzifəyə təyin və vəzifədən azad edir;**
- **5.5.7-1. Azərbaycan Respublikasının baş dövlət baytarlıq müfəttişi və baş dövlət fitosanitar müfəttişini təyin edir.**
- **5.5.8. Agentliyin Aparatının və onun strukturuna daxil olan regional bölmələrin işçiləri, habelə Agentliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki digər qurumların rəhbərləri və onların müavinləri barədə həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;**
- **5.5.9. müəyyən olunmuş əməkhaqqı və işçilərin say həddi daxilində Agentliyin regional bölmələrini yaradır və ləğv edir;**
- **5.5.10. əmr və sərəncam formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Agentlikdə qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;**
- **5.5.11. Agentliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;**
- **Respublikasının və xarici ölkələrin dövlət orqanlarına, idarə, müəssisə və təşkilatlarına, hüquqi və fiziki şəxslərinə, habelə beynəlxalq təşkilatlara münasibətdə Agentliyi təmsil edir, danışıqlar aparır, verilmiş səlahiyyətlər daxilində müvafiq beynəlxalq sənədləri imzalayır;**

- **5.5.13. Agentliyə aid edilmiş məsələlər üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar fondların formalaşdırılması ilə bağlı təkliflər verir;**
- **5.5.14. dövlət büdcəsindən ayrılmış vəsaitin səmərəli xərclənməsini təmin edir;**
- **5.5.14-1. işçilərin attestasiyası (dövlət qulluqçuları istisna olmaqla), ixtisaslarının artırılması və onların peşə hazırlığının gücləndirilməsi üçün müvafiq tədbirlər görür;**
- **5.5.14-2. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar xüsusi vəsaitin sərəncamçısı olmaqla, maliyyə vəsaitini Agentliyin Aparatı və onun regional bölmələri arasında bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla işçilərinin vəzifə maaşlarına müəyyən edilmiş əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;**
- **5.5.14-3. dövlət büdcəsindən ayrılmış vəsait və ştat sayı hüdudlarında, müəyyən olunmuş qaydada Agentliyin tabeliyində digər qurumların yaradılması, yenidən təşkili və ləğvi barədə müvafiq qərarlar qəbul edir;**
- **5.5.14-4. Agentliyin struktur bölmələrinin işçilərinin vahid geyim formalarının və fərqlənmə nişanlarının təsvirini və daşınması qaydasını təsdiq edir;**
- **5.5.15. Agentliyin Aparatının və onun strukturuna daxil olan regional bölmələrin işçilərinə ixtisas dərəcələri verir.**
- **5.6. Agentliyin strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki digər qurumlar onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar.**

- **5.7. Sədr öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini və ya vəzifələrinin müvəqqəti olaraq icrasını müavinlərindən birinə həvalə edə bilər.**
- **5.8. Agentlikdə sədrdən (Kollegiyanın sədri), sədrin müavinlərindən, Naxçıvan Muxtar Respublikasının aidiyyəti icra hakimiyyəti orqanının rəhbərindən və Agentliyin rəhbər işçilərindən ibarət Kollegiya yaradılır. Agentliyin Kollegiyasının tərkibinə, həmçinin mütəxəssislər və alimlər də daxil edilə bilərlər.**
- **5.9. Agentliyin Kollegiyasının üzvlərinin sayını və tərkibini Azərbaycan Respublikasının Prezidenti təsdiq edir.**
- **5.10. Agentliyin Kollegiyası öz iclaslarında Agentliyin fəaliyyəti ilə bağlı məsələləri müzakirə edir və onlar haqqında müvafiq qərarlar qəbul edir.**
- **5.11. Agentliyin Kollegiyası qərarlar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:**
- **5.11.1. Agentliklə digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ hüquqi aktlar;**
- **5.11.2. qəbul edilməsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən Agentliyə tapşırılmış konkret normativ hüquqi aktlar;**
- **5.11.3. bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktlar;**
- **5.11.4. qanunvericiliklə müəyyən edilmiş hallarda müvafiq dövlət orqanları ilə razılaşdırılmalı olan normativ hüquqi aktlar;**

- **5.11.5. sədrin təşəbbüsü ilə Agentliyin Kollegiyasının müzakirəsinə çıxarılan bu Əsasnamənin 5.5.3-cü yarımbəndində nəzərdə tutulmuş normativ hüquqi aktlar;**

- **5.11.6. bu Əsasnamənin 5.11.1 – 5.11.5-ci yarımbəndlərinə uyğun olaraq, Agentliyin Kollegiyasının qəbul etdiyi normativ hüquqi aktların ləğvi və ya onlarda dəyişikliklər edilməsi barədə normativ hüquqi aktlar.**

- **5.12. Agentliyin Kollegiyasının iclasları kollegiya üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Agentliyin Kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Agentliyin Kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olarsa, Kollegiya sədrinin səsi həlledici hesab edilir.**

- **5.12-1. Kollegiyanın iş qaydasını sədr müəyyənləşdirir və iclaslarını mütəmadi olaraq sədr çağırır.**

- **5.13. Agentliyin Kollegiyasının üzvləri arasında fikir ayrılığı yarandığı hallarda, sədr bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verərək, öz qərarını həyata keçirir. Agentliyin Kollegiyasının üzvləri şəxsi fikirlərini Azərbaycan Respublikasının Prezidentinə çatdıra bilərlər.**
- **5.14. Agentliyin Kollegiyasının iclaslarına digər icra hakimiyyəti orqanlarının və təşkilatların, habelə qeyri-hökumət təşkilatlarının nümayəndələri də dəvət edilə bilərlər.**
- **5.15. Müvafiq sahədə elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün Agentlikdə ictimai əsaslarla fəaliyyət göstərən Elmi-Texniki Şura yaradıla bilər.**
- **5.16. Agentlikdə, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslər tərəfindən özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı Agentliyin və ya onun struktur (regional) bölmələrinin qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) verilmiş təkrar şikayətlərə baxan, ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən və kollegial orqan olan Apellyasiya Şurası yaradılır.**

- **Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında fərman 13 noyabr 2017-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanmışdır. Bu fərmanla "Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə" və "Qida Təhlükəsizliyi Agentliyinin strukturu" təsdiq edildi.**

# Azərbaycan Respublikası  Qida təhlükəsizliyi Agentlyinin *vəzifəli şəxslərinnin hüquqları*.

1. **Respublika sanitariya qanunvericiliyinin yerinə yetirilməsini, Sanitariya gigiyenik və epidemiya əleyhinə tədbirlər görülməsini, qüvvədə olan Sanitariya Norma və Qaydalarına (SNvəQ), Gigiyenik Normalara (GN) əməl edilməsini yoxlamaq məqsədi ilə (tabeliyində olan və mülkiyyət formasından asılı olmayaraq) müəssisələrə, təşkilatlara və idarələrə maneəsiz gedib (vəsiqəsini göstərməklə) yoxlama aparmaq (???),**

**SNvəQ, GN-ın pozğunluqlarını aradan qaldırmağı onlardan tələb etmək.**

2. **Zəruri hallarda Elmi Tədqiqat İdarələrinə (ETİ), laboratoriyalarına, ali məktəblərə, digər müəssisələrə xüsusi ekspertizalar və məsləhətləşmələr keçirmək tapşırmaq.**

- ***AQTA sədri və müavinlərinin səlahiyyətləri***
- **İdarə, müəssisə, təşkilatlar, vəzifəli şəxslər və vətəndaşlar qarşısında sanitariya-gigiyenik və sanitariya-epidemiyalar əleyhinə tədbirlər həyata keçirmək tələblərini qoya bilərlər.**

- ***Layihələşdirmə normalarına, qida obyektləri layihələrinə, yeni növ xammallar, yeyinti məhsulları, istehsalat məmulatları, taralar, qablaşdırıcı vasitələr, polimer və sintetik materiallar və onlardan hazırlanan məmulatlar, həmçinin əhalinin sağlamlığına zərər verməyən yeni texnoloji xətlər, texnoloji proseslər, texnoloji avadanlıqlar, alətlərə rəy verə bilərlər.***

- **İstifadəyə verilən qida obyektlərinin qüvvədə olan saniarya -gigiyenik və sanitariya- epidemiyalar əleyhinə norma və qaydalara uyğunluğuna rəy verə bilərlər.**
- ***Əhalinin sağlamlığına ziyanlı təsir göstərə bilən obyektlərin istifadəsini və ya tikintisini çatışmazlıqlar aradan qaldırılana qədər dayandıra və ya qadağan edə bilərlər.***

- **Yeyinti məhsullarının işlənməsi və emalında istifadə edilən kimyəvi maddələr, vasitə və metodların, həmçinin kənd təssərüfatı bitkiləri və heyvanlarının boy stimulyatorlarının, bitkilərin kimyəvi qoruyucularının, polimer və sintetik məmulatların sağlamlıq üçün təhlükəli olduğu hallarda onların istifadəsini qadağan edə bilərlər.**

- ***İnsanların qidalanması üçün yararsız məhsulların istifadəsini dayandıra və ya qadağan edə bilərlər.***
- **Zay məhsulların məhv edilməsi haqda qərar qəbul edə bilərlər.**
- ***Xəstə, basilgəzdirən və qurdgəzdirənləri işdən uzaqlaşdıra bilərlər.***

- **Qida obyektlərində yoxlamalar apara, çatışmazlıqları aradan qaldırmaq tələblərini irəli sürə bilərlər**

- ***Məsul şəxslərdən məlumatlar və sənədlər tələb edə bilərlər.***
- **Məhsullardan, materiallardan və s. laborator müayinə nümunələri götürtdürə, habelə bilavasitə nəzarət obyektlərində zəruri laboratoriya tədqiqatları aparmaq göstərişi verə bilərlər.**

# *AQT İnstitutunun strukturu*

- **LABORATORİYALARIN İDARƏ EDİLMƏSİ DEPARTAMENTİ**
- **KEYFİYYƏTƏ NƏZARƏT DEPARTAMENTİ**
- **ANALİTİK EKSPERTİZA MƏRKƏZİ**
- **RİSKLƏRƏ NƏZARƏT DEPARTAMENTİ**
- **SAHİBKARLARLA ƏMƏKDAŞLIQ DEPARTAMENTİ**
- **ELMİ-TƏDQİQAT DEPARTAMENTİ**
- **HÜQUQ VƏ NORMATİV TƏNZİMLƏMƏ DEPARTAMENTİ**
- **İNFORMASİYA TEXNOLOGİYALARI DEPARTAMENTİ**
- **MARKETİNQ VƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR DEPARTAMENTİ**
- **İNSAN RESURSLARI VƏ SƏNƏDLƏRLƏ İŞ DEPARTAMENTİ**
- **TƏSƏRRÜFAT VƏ TƏCHİZAT DEPARTAMENTİ**
- **MALİYYƏ DEPARTAMENTİ**
- **BEYNƏLXALQ ƏMƏKDAŞLIQ ŞÖBƏSİ**
- **DAXİLİ NƏZARƏT VƏ TƏHLÜKƏSİZLİK ŞÖBƏSİ**
- **SATINALMA ŞÖBƏSİ**

## ARQA-i Qida təhlükəsizliyi institutunun *функсийалары*

- **Qidalanma gigiyenası üzrə sanitar-gigiyenik normalar və sanitariya qaydaları işləyib hazırlayır və təsdiq edir.**

- **Yeyinti sənayesi müəssisələrinin layihələşdirilmə normalarının proyektinə rəy verir.**
-
- **AQA-i xidmətinin digər nazirlik və idarələrin tibbi-sanitariya xidmətlərinin işinə metodik yardım göstərir.**

- ***<u>AQTA xidmətinin vəzifəli şəxsləri sanitariya nəzarətini həyata keçirərkən aşağıdakıları yerinə yetirməyə borcludurlar:</u>***

- ***Qidalanmaya cavabdeh orqanların müzakirəsinə sağlamlaşdırıcı tədbirlər planları, perspektiv planlar vermək.***
- ***- Müəssisə rəhbərlərinə mənsubiyyətindəki müəssisədə olan işçilərin sanitariya-gigiyenik və epmdemiyalar əleyhinə norma və qaydaları yerinə yetirmədiklərini bildirə, günahkar şəxslər haqda inzibati tədbir görmələrini onlardan tələb etmək.***

- ***- Sanitariya qaydalarının pozulması hallarında günahkar şəxslərə inzibati təsir göstərmələrini dövlət, həmkarlar, inzibati orqanlar və ictimai təşkilatların nəzərinə çatdırmaq.***
- ***- Günahkar şəxsləri cəriməyə cəlb etmək.***
- ***- Sanitariya-gigiyenik və epidemiyalar əleyhinə tədbirləri pozan şəxslər haqda cinayət işi qaldırmaq.***

# *LABORATORİYALAR*

- MİLLİ REFERENS LABORATORİYASI
- MƏRKƏZİ BAYTARLIQ LABORATORİYASI
- MƏRKƏZİ FİTOSANİTAR LABORATORİYASI
- KOMPLEKS MÜAYİNƏLƏR LABORATORİYASI
- ABŞERON - REGİONAL SINAQ LABORATORİYASI
- SUMQAYIT REGİONAL SINAQ LABORATORİYASI
- MEYVƏLİ SINAQ LABORATORİYASI
- UCAR REGİONAL SINAQ LABORATORİYASI
- ŞƏKİ REGİONAL SINAQ LABORATORİYASI
- ŞAMAXI REGİONAL SINAQ LABORATORİYASI
- QUBA REGİONAL SINAQ LABORATORİYASI
- QAX REGİONAL SINAQ LABORATORİYASI
- XAÇMAZ REGİONAL SINAQ LABORATORİYASI
- GÖYGÖL REGİONAL SINAQ LABORATORİYASI
- BƏRDƏ REGİONAL SINAQ LABORATORİYASI
- TOVUZ REGİONAL SINAQ LABORATORİYASI
- LƏNKƏRAN REGİONAL SINAQ LABORATORİYASI
- SALYAN REGİONAL SINAQ LABORATORİYASI
- SABİRABAD REGİONAL SINAQ LABORATORYASI
- BEYLƏQAN REGİONAL SINAQ LABORATORİYASI
- CƏLİLABAD REGİONAL SINAQ LABORATORİYASI

- *QTQ-i  həkiminin səlahiyyətlərinə daxildir*
- **Qida obyektlərində yoxlamalar apara, çatışmazlıqları aradan qaldırmaq tələblərini irəli sürmək.**
- **biləriər   ???.**
- ***Müəssisə rəhbərlərinə mənsubiyyətindəki  müəssisədə olan işçilərin sanitariya-gigiyenik və epmdemiyalar əleyhinə norma və qaydaları yerinə yetirmədiklərini bildirə, günahkar şəxslər haqda inzibati tədbir görmələrini onlardan tələb etmək.***
- ***Xəstə, basilgəzdirən və qurdgəzdirənləri işdən uzaqlaşdırmaq.***
- ***Qidalanma üçün yararsız məhsulların istifadəsini dayandırmaq.***
- **Məhsullardan, materiallardan və s. laborator müayinə nümunələri götürə və zəruri müayinələr aparılması üçün laboratoriyaya  göndərmək.**


Qidalanma gigiyenası sahəsində işləyən həkim və köməkçilərin fəaliyyəti şərti olaraq 4 növə bölünür.
Xəbərdaredici sanitariya nəzarəti
Cari sanitariya nəzarəti
Təşkilati metodik iş
Sanitariya maarifi işi

## AQTA əməkdaşlarının fəaliyyət növlərinə sərf lunan vaxt

| Fəaliyyət növləri | sərf olunan vaxt ( %-lə ) | |
|---|---|---|
| | həkim | köməkçi |
| Xəbərdaredici san-nəzarəti | 15 | 5 |
| Cari sanitariya nəzarəti | 52 | 78 |
| Təşkilati- metodik iş | 30 | 15 |
| Sanitariya maarifi işi | 3 | 2 |

- ***Sanitariya nəzarətinin həyata keçirilmə metodu və təcrübəsi***
- **Həkimlər  və həkim köməkçiləri öz fəaliyyətlərini planlaşdırarkən:**
- **- illik və kvartal planlar,**
- **- qida obyektlərinin müayinəsinin plan-qrafiklərini tərtib edirlər.**
- **İllik plana aşağıdakılar daxildir:**
- ***- bölmənin əsas vəzifələri,***
- ***- təşkilati tədbirlər,***
- ***- xəbərdarlıqedici sanitariya nəzarəti,***
- ***- cari sanitariya nəzarəti,***
- ***- laborator nəzarət,***
- ***- sanitariya maarifi işi və sanitariya fəlları ilə iş,***
- ***- elmi tədqiqat işi.***
- **Kvartal planlarda isə:**
- ✓ **İllik plana müvafiq görüləcək işlərin təfərrüatı ilə və  konkret yerinə yetirilmə qaydası əksini tapmış olur.**
- ✓ **Həkimlər və köməkçilər kvartal plana müvafiq olaraq bilavasitə obyektlərdə görəcəkləri işlərin plan-qrafikini tərtib edirlər.**

- **<u>Kargüzarlıq</u> işləri düzgün qurulmadan, sənədlərin vahid formada qeydiyyatı olmadan, heç vaxt görülən işlərin tam həcmdə hesabatını aparmaq mümkün olmaz. (ona görə də sənədləşməyə xüsusi diqqət yetirmək lazımdır)**

- **Həkimlər və köməkçilər fərdi gündəliklərində gün ərzində gördükləri işlərin qeydiyyatını aparırlar ki, bunu da tərtib etdikləri sənədlərlə təsdiqləyirlər.**

- **Təşkilatın əsas hesabat sənədi 18 saylı formadır.**
- **Formanın izahedici hissəsində plana müvafiq bütün görülən işlər əksini tapmış olur.**
- **Qidalanma gigiyenası şöbəsi öz işini QTA-in digər bölmələri, SN, Dövlət, inzibati, hüquq-mühafizə orqanları, qeyri hökumət qurumları, sahə və idarə sanitariya xidmətləri və s. ilə əlaqəli, əlbir həyata keçirməlidir.**

- **Qidalanma sahəsində DSN-i həyata keçirərkən istifadə edilən metodlar:**
- **- Yeyinti sənayesi müəssisəsinin sanitariya təsviri, məhsulun hazırlanma şəraiti və rejiminin və s. tərtibi (sanitar pasport) ;**
- **- Nəzarət altında olan qida obyektlərinin vaxtaşırı sanitariya müayinəsi;**
-

- **Müayinə formaları:**
- ***- ümumi,***
- ***- tematik,***
- ***- epidemioloji göstəriş üzrə,***
- ***- nəzarət (yoxlama),***
- ***- reyd şəkilli (məqsədli, birdəfəlik),***
- ***- laborator-instrumental,***
- ***- gigiyenik savadlandırma vasitələrindən istifadə etməklə tematik sanitariya müşahidəsi (diplomlu qida obyekti)***

**<u>Nəzarət orqanlarının sərəncam və göstərişlərinin yerinə yetirilmədiyi hallarda aşağıdakı tədbirlərə əl atıla bilər:</u>**

***(bir qayda olaraq nəzarətinin kəsərliliyi üçün verilən sərəncamların izibati-hüquqi aktlarda göstərilən müddətdə yerinə yetirilməsinə nail olunması əsas şərtdir)***

- ***- göstərişin yerinə yetirilmə müddəti uzadıla bilər (əsaslandırılmış üzürlü səbəb olarsa),***
- ***- inzibati və ictimai təsir,***
- ***- tikintinin dayandırılması,***
- ***- qida obyektinin istismarının qadağan edilməsi,***
- ***- yeyinti məhsulu istehsalı və satışının qadağan edilməsi,***
- ***-qida məqsədli avadanlıq, tara, inventar və qablaşdırıcı materialların buraxılmasının qadağan edilməsi,***
- ***- cərimə tətbiqi,***
- ***- işdən kənarlaşdırma,***
- ***- inzibati cəzaya cəlb edilmə və s.***

# Ədəbiyyat


1.Петровски В.А. Гигиена питания., «Медицина» Москва, 1971. Москва, с. 473- 493. , 517-523.

2.Azərbaycan Respublikasının Sanitar Epidemioloji Salamatlıq haqqında qanunu . Bakı- 1992.

3. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Əsasnaməsi (Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli Fərmanı ilə təsdiq edilmiş).

4. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. Bakı- 2000. 2008

ДиггятинизЯ
эюря
миннятдарам !